# ŞƏHƏRLƏR VƏ REGIONLAR:
# UŞAQLARA QARŞI SEKSUAL ZORAKILIĞA SON QOYULMASI HAQQINDA PAKT

one in five
un sur cinq

Avropa Şurasının
**«BEŞDƏN BİRİ»** kampaniyasına
Konqressin töhfəsi

**Toolkit**

The Congress
Le Congrès

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Qiymətləndirmələrə əsasən, Avropada beş uşaqdan biri müəyyən formada seksual zorakılığın, məsələn, insest, pornoqrafiya, fahişəlik, insan alveri, korrupsiya, İnternet vasitəsilə təqibetmə, seksual istismar və ya nalayiq seksual hərəkətlərin qurbanına çevrilir. Problemin miqyasını nəzərə alaraq, Avropa Şurası 2010-cu ildə «BEŞDƏN BİRİ» kampaniyasına başlayıb, bunda məqsəd hər kəsin (uşaqların, valideynlərin və uşaqlarla işləyən şəxslərin) problem barədə məlumatlılığını artırmaqdan və Uşaqların seksual istismardan və nalayiq seksual hərəkətlərdən müdafiəsi haqqında Avropa Şurası Konvensiyasının (o, həmçinin «Lansarote Konvensiyası» adı ilə tanınır) Avropa Şurasının üzvü olan 47 dövlət tərəfindən, eləcə də daha geniş miqyasda ratifikasiya olunmasını və həyata keçirilməsini təşviq etməkdən ibarətdir.

Milli hökumətlər kimi yerli və regional hakimiyyət orqanlarının mühüm vəzifəsi vətəndaşların insan hüquqlarını qorumaq və təşviq etməkdir və bu vəzifə onların ərazisində yaşayan uşaqların və gənclərin təhlükəsizliyinin və rifahının təmin olunmasını və təşviqini özündə ehtiva edir. Seksual zorakılığın və nalayiq seksual hərəkətlərin qurbanlarına yardım xidmətləri əsasən yerli səviyyədə göstərilir. Məhz bu səviyyədə görülən qabaqlayıcı və məlumatlandırıcı tədbirlər daha səmərəli ola bilər. Buna görə də yerli və regional hakimiyyət orqanları uşaqlar barəsində zorakılığa qarşı mübarizənin ön cərgəsindədirlər və belə halların araşdırılmasına və onların gələcəkdə baş verməsinin qarşısının alınmasına yönələn fəaliyyət planları və strategiyalar hazırlamalı və həyata keçirməlidirlər.

Avropa Şurasının Yerli və regional hakimiyyət orqanları konqressi Şəhərlərin və regionların uşaqlara qarşı seksual zorakılığa son qoyulması haqqında bu Paktını ona görə hazırlayıb ki, hakimiyyət orqanları seksual istismara və nalayiq seksual hərəkətlərə qarşı mübarizədə onu rəhbər tutsunlar. Bu sənəddə uşaqların tələbatlarına uyğunlaşdırılmış xidmətlərin göstərilməsi, cəmiyyətdə uşaqların seksual zorakılıqdan müdafiə edilməsi və belə halların qarşısının alınması məqsədi ilə yerli və regional səviyyələrdə həyata keçirilməli olan praktiki təşəbbüslər və siyasətlər sadalanır.

PREMS 51614

AZE

1949-cu ildə təsis edilmiş siyasi təşkilat olan Avropa Şurası qitə miqyasında demokratiyanın və insan hüquqlarının təşviqi üçün çalışır. Avropa Şurası həmçinin onun üzvü olan 47 dövlətdə sosial, mədəni və hüquqi problemlərin həlli üçün ümumi tədbirlər işləyib hazırlayır. Avropa Şurasının Yerli  və regional hakimiyyət orqanları konqressi yerli və regional hakimiyyət orqanlarını təmsil edir və yerlərdə demokratiyanı təşviq edir. O, iki palatadan – Yerli hakimiyyət orqanları palatasından və Regionlar palatasından ibarətdir və Avropanın 200.000-dən artıq ərazi icmalarını təmsil edən 318 tam hüquqlu üzvü və 318 əvəzedici üzvü özündə birləşdirir.

The Congress
Le Congrès

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

CONGRESS OF LOCAL AND REGIONAL AUTHORITIES OF THE **COUNCIL OF EUROPE**
Avenue de l'Europe – F 67075 Strasbourg Cedex / Tel.: +33 (0)3 88 41 21 10 / Fax : +33 (0)3 88 41 37 47
**www.coe.int/congress-oneinfive – congress.oneinfive@coe.int**